**Pilot layihə çərçivəsində orta və kiçik tibb işçilərinin (heyətinin) əmək haqlarına əlavələrin hesablanması və ödənilməsi Qaydaları**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə"nin (bundan sonra – pilot layihə) 15-ci hissəsinə uyğun olaraq hazırlanmışdır və pilot layihə çərçivəsində Agentliyin tabeliyinə verilmiş dövlət səhiyyə sisteminə daxil olan qurumlarda (bundan sonra – tibb təchizatçıları) göstərilən tibbi xidmətlərin müqabilində orta və kiçik tibb işçilərinin (heyətinin) mövcud əmək haqlarına əlavələrin verilməsi qaydasını müəyyən edir.

## 2. Əmək haqlarına əlavələrin verilməsi qaydaları

2.1. İcbari tibbi sığortanın tətbiqi məqsədilə tibb təchizatçılarının yeni prinsiplərə əsasən maliyyələşməsi ilə əlaqədar olaraq həmin tibb təchizatçılarında çalışan orta və kiçik tibb işçilərinin (heyətinin) ixtisasından və ya çalışdığı struktur vahidindən asılı olaraq "Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli 3731 nömrəli Sərəncamı, "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli Qərarı, "Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı və digər normativ hüquqi aktlarla tənzimlənən mövcud əmək haqlarına hər ay tətbiq edilən **əlavələrin** məbləği aşağıdakı qaydada müəyyənləşdirilir:

| **Sıra nömrəsi** | **Struktur vahidin/vəzifənin adı** | **Əlavələrin məbləği (vergilər və digər tutulmalar daxil olmaqla)** |
|---|---|---|
| **2.1.1. ORTA TİBB İŞÇİLƏRİ (HEYƏTİ)** | | |
| 2.1.1.1. | Reanimasiya şöbəsi (laborant vəzifəsində çalışan orta tibb işçiləri (heyəti) istisna olmaqla), Cərrahiyyə şöbəsinin Əməliyyatxana bölməsi (Əməliyyatxana bölməsində Əməliyyatxana texniki vəzifəsində çalışan orta tibbi işçiləri istisna olmaqla) | 200,00 manat |
| 2.1.1.2. | Cərrahiyyə (Əməliyyatxana bölməsində çalışan orta tibb işçiləri (heyəti) istisna olmaqla), Terapiya, Uşaq, Ginekologiya doğum, Hemodializ, Ailə Sağlamlıq Mərkəzi şöbələrində, habelə Aptek və Sterilizasiya bölmələrində, Statistika bölməsində isə tibb statistiki vəzifəsində çalışan orta tibb işçiləri (heyəti) | 150,00 manat |

| | | |
|---|---|---|
| 2.1.1.3. | Poliklinika, Fizioterapiya, Laboratoriya, Radiologiya, Uşaq Nevroloji Sanatoriyası şöbələrində, habelə Reanimasiya şöbəsində laborant vəzifəsində çalışan orta tibb işçiləri (heyəti) | 120,00 manat |
| 2.1.1.4. | Əməliyyatxana bölməsində əməliyyatxana texniki vəzifəsində çalışan orta tibb işçiləri (heyəti) | 80,00 manat |
| 2.1.1.5. | Tibb bacıları şöbəsinin müdiri vəzifəsində çalışan orta tibb işçisi (heyəti) | 850,00 manat |
| **2.1.2. KİÇİK TİBB İŞÇİLƏRİ (HEYƏTİ)** | | |
| 2.1.2.1. | Ailə Sağlamlıq Mərkəzi, Cərrahiyyə, Ginekologiya doğum, Fizioterapiya, Hemodializ, Laboratoriya, Uşaq, Poliklinika, Radiologiya, Reanimasiya, Terapiya, Uşaq Nevroloji Sanatoriyası şöbələri, Sterilizasiya, habelə Aptek bölməsi | 80,00 manat |
| 2.1.2.2. | Təsərrüfat bacısı vəzifəsində çalışan kiçik tibb işçiləri (heyəti) | 130,00 manat |

2.2. İş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə Tibb bacıları şöbəsində çalışan baş tibb bacılarının (böyük tibb bacılarının və baş mamanın) əmək haqları onların təhkim olunduğu şöbələrdə bu Qaydaların 2.1-ci bəndinə əsasən orta tibb işçiləri üçün nəzərdə tutulmuş mövcud əmək haqlarına əlavələrin verilməsi, habelə vergilər və digər tutulmalar daxil olmaqla hər ay 50,00 manat məbləğində artımın tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.

2.3. Tibb bacıları şöbəsinin müdiri vəzifəsində çalışan orta tibb işçisinin (heyətinin) iş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə onun mövcud əmək haqqısına bu Qaydaların 2.1.1.5-ci abzasında göstərilmiş məbləğdə əlavənin verilməsi, habelə hər ay həmin əlavənin 15%-i həcmində artımın (əlavənin) tətbiq edilməsi (vergilər və digər tutulmalar daxil olmaqla) yolu ilə müəyyənləşdirilir.

2.4. İş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə Baş təsərrüfat bacısı vəzifəsində çalışan kiçik tibb işçilərinin (heyətinin) əmək haqları onların bu Qaydaların 2.1-ci bəndində təsbit olunmuş qaydada mövcud əmək haqlarına əlavələrin verilməsi, habelə vergilər və digər tutulmalar daxil olmaqla hər ay 50,00 manat məbləğində əlavənin tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.

2.5. Fizioterapiya prosedurunu həyata keçirən orta tibb işçilərinin əmək haqlarına hər xəstə üçün vergilər və digər tutulmalar daxil olmaqla 1,00 manat məbləğində əlavə tətbiq edilir.